**UOT 75**

***Aysel Bərxudarlı***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065 , Bakı, İnşaatçılar pr. 39***
***E-mail***: berxudarli.aysel@yandex.ru

# XX ƏSRİN 80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ PORTRET JANRI

**Xülasə:** Bu məqalədə XX əsrin 80-ci illərində portret janrında fəaliyyət göstərən rəssamların həyat və yaradıcılığı haqqında məlumat verilir və onların əsərlərinin təhlili təqdim edilir. Bundan əlavə, məqalədə məşhur rəssamlar barədə bəhs olunur.

**Açar sözlər:** Azərbaycan rəngkarlığı, portret janrı, realizm, abstraktsionizm, bədii obraz, rəssam.

1980-ci illərin ortalarında Azərbaycanın siyasi arenasında xalqın milli şüurunda əsl "partlayış" oldu. Yalnız rəssamlar yox, müxtəlif yaş və sosial təbəqədən olan insanlar da milli dəyərləri və prioritetləri haqqında düşünməyə başladılar. Xalqın həyatı ilə yanaşı onların yaratdıqları sənət əsərləri, milli musiqi alətləri, tipik memarlıq formaları rəssamların əsas obyekti idi. Bu zaman rəssamlar Azərbaycan mədəniyyətinin eyni simvolları olan şairlərin, musiqiçilərin, siyasətçilərin və alimlərin obrazlarını əsərlərinə daxil edirdilər. Rəssamların hər biri bütövlükdə Azərbaycan mədəniyyətinin yenidən qurulmasını istəyirdi və hər kəs necə olursa olsun öz obrazını bərpa etməyə çalışırdı.

Beləliklə, XX əsrin 80-ci illərində Azərbaycan rəngkarlığında portret, müasir incəsənətdə olan bütün dəyişikliklərə baxmayaraq öz aktuallığını saxlayırdı və əvvəlki kimi müasir Azərbaycan mədəniyyətinin kontekstində fenomen olmağa davam edirdi.

1980-ci illər Azərbaycan təsviri sənətində özünüdərk, özünəqayıdış, özünüifadə yönümlü əsərlər meydana çıxdı. Bu dövr incəsənəti bir tərəfdən obrazların ümumiləşməsi, digər tərəfdən isə modellərin seçilməsində daha demokratik yanaşma ilə özünü göstərir. Zaman keçdikcə portretlərin personajları rəssamların yaxın adamları, dostları, qohumları və ya sadəcə zahiri görkəmi ilə diqqət cəlb edən tanınmayan insanlar olur. Portret öz mənasını dəyişir, yəni təsvir

olunan şəxsin mənəvi aləmi, psixi vəziyyəti, zahiri görkəmi başqa formada görünür. Azərbaycan rəssamlarının portretlərində rəng, forma, faktura və məkan kimi rəngkarlıq elementləri diqqəti daha çox cəlb edir.

Gözəl rəng hissiyatı və dərin müşahidə qabilliyyətinə malik olan Böyükağa Mirzəzadə milli dəzgah rəngkarlığımızın formalaşmasında mühüm rolu olmuşdur. Böyükağa Mirzəzadə yaradıcılığı 80-ci illərdə yeni xüsusiyyətlər alır. Onun son dövr yaratdığı portretlərində personajların sosial xarakteristikası öz yerini təkrarsız fərdi xüsusiyyətlərə və emosional ahənglərə verir. Bu dövr rəssamın diqqətini cəlb edən əsas mövzu qadın gözəlliyi və gəncliyidir. Belə portret əsərlərində dahi rəssam qadının daxili məlahətini ifadə etməyə can atırdı. Bu əsərlər arasında rəssamın “Həyat yoldaşının portreti” (1980), “Müğənni xanımın portreti” (1980), “Çiçəklər ilə qadın portreti”ni (1980) qeyd edə bilərik.

“Müğənni xanımın portreti” XX əsr Azərbaycan ifaçılıq sənətində bəlkə də heç kəsin heç zaman qalxa bilməyəcəyi bir zirvədə olan Zeynəb Xanlarovaya həsr olunmuşdur. Əsərdə gözəl müğənni səhnədə ifa zamanı təsvir olunmuşdur. Bu portret rəssamın əvvəlki dövrlərdə yaratdığı müğənni xanımlar S.Qədimova və S.Aslanovanın, həmçinin rəqqasə R.Cəlilovanın portretlərində başlanmış ənənəni uğurla davam etdirir. Gənc qadının qızılı paltar və ayaqqabısı, al qızılgüllə bəzənmiş saçları olduqca canlı və real təsvir olunub. Gözəl müğənni obrazı olduqca cəlbedici və rəngarəngdir. Obrazın plastik əlləri, tünd səhnə fonundakı aşıq rəngli silueti və gül dəstəsində qırmızı boya yaxmaları əsərin koloritini zənginləşdirir və emosional təsir qüvvəsini daha da qüvvətləndirir.

XX əsrin ikinci yarısında Azərbaycan təsviri incəsənətinin parlaq nümayəndələrindən biri olan Oqtay Sadıqzadənin gerçəkliyə olan münasibəti onun müxtəlif janrlarda, xüsusilə portret janrında yaratdığı əsərləri ilə ifadə olunur. Rəssamın portretlər qalereyasında ədəbi simalar silsiləsindən yazıçı və şairlərin, dramaturqların obrazları xüsusi yer tutur.

Rəssam tərəfindən Azərbaycanın görkəmli şəxsiyyətlərinin, tanınmış ədəbi simaların – Xalq şairi Səməd Vurğunun (1980), Xurşudbanu Natəvanın (1983), Aliyə xanım Qacarın (1983), şairə Qönçəbəyimin (1984), Gülrəna xanım Qacarın (1984), böyük şairimiz H.Cavidin (1985), Fidan Qasımovanın (1988) portretləri yaradılmışdır. Bədii ümumiləşdirmə qabiliyyətinə malik rəssam daima özünəməxsus təsvir və ifadə vasitələri taparaq obrazların daxili ekspressivliyini qabarıq şəkildə verməyə nail olur.

Rəssam görkəmli şairə Xurşidbanu Natəvanın portretini 1983-cü ilə yaratmışdır. Təmtəraqlı planda düşünülmüş portretdə rəssam təbii və sərbəst vəziyyətdə oturmuş modeli olduqca real təsvir etməyi bacarmışdır. Şairənin obrazının şərhində işıqlı hüzn və lirik əhval-ruhiyyə xarakterikdir. Obrazın üzündə zərif, incə hisslər özünü büruzə verir, üzün cizgiləri və paltarının qollarındakı krujevanın naxışları ilə haşiyələnmiş əllərin zərif cizgiləri tamaşaçını valeh edir. “Xurşidbanu Natəvanın baş örtüyü, geyimi, xalı və s. detallar portretə xass olan milli koloriti daha da gücləndirir” [1, 29]. Model bir əlini üzünə söykəmiş, digər əlində isə bir qızılgül tutaraq təsvir edilmişdir. Masanın üzərində isə şairənin şeirlər

kitabı görünür. Rəssam obrazını onun yaradıcılıq fəaliyyəti ilə uyğun şəkildə təsvir etməyi bacarmışdır.

Rəssamın yazıçı və şairlər, dramaturqlar, ictimai-siyasi, elm və mədəniyyət xadimləri, zəhmətkeşlər silsiləsinə daxil olan portretlərindən biri də görkəmli şairə Qönçəbəyimin portretidir. Şairə Qönçəbəyim Naxçıvanda Ehsan xanın ailəsində anadan olmuşdurş Şərq ədəbiyyatına, poeziyaya güclü meyl göstərən şairənin yaradıcılığında gəraylı, qoşma və digər aşıq şeiri formaları üstünlük təşkil etmidir. Kompozisiyada fon qəhvəyi rəngdə verilmişdir, şairənin üstündə əyləşdiyi sandıq, onun üzərinə sərilən kilimin naxışları, mütəkkələr və s. detallar kompozisiyanın ifadəliliyini daha da artırır. "Poetik istedada, güclü təfəkkürə və misilsiz gözəlliyə" [2, 23] malik olan şairə qırmızı rəngli mütəkkəyə dirsəklənərək əyləşmişdir.

Azərbaycan rəssamlarının parlaq nümayəndələrindən, yaradıcılığında daim milli qaynaqlara tapınan Mir Nadir Zeynalov özünəməxsus yaradıcılıq üslubu, emosional tabloları ilə hər zaman seçilir. Abstrakt üslubu onun rəngkarlıq yaradıcılığında aparıcı rol oynayır. Özünü əsla təkrarlamamağa çalışan rəssam öz düşüncələrinə və əsərlərinə daima yeniliklər qatır.

Zeynalovun yaradıcılıq irsinin əhəmiyyətli yerini portretlər təşkil edir. Onun portretləri yaradılma tərzinə və daxili tamlığına görə müxtəlifdir. Rəssam tamaşaçını özünün qeyri-adiliyini dərk etməyə çağıraraq bütün diqqəti təsvir olunanın simasında toplamağa çalışır. Onun portretlərində dərinlik uydurmaya dönür. Əsasən rəssam qeyri-adiliyi əks etdirməyə çalışır. Uğurlu portretləri arasında "Sənətşünas L.Peterçukun portreti" (1980), "Oğlumun portreti" (1980), "Rəssam R.Aslanovun portreti" (1982), Hind dövründən bir sıra portretlər – "Hindistan yaylığında qadın" (1985), "Duyğu" (1986), "Gənc qızın portreti" (1987), "Dəniz xatirələri" (1987), "Şərəf xanımın portreti" (1989), "Gülarənin portreti" və s. əsərlərdə əsas diqqət formanın xarici dekorativ ifadəliliyinə yönəlmiş və bu onları daha da maraqlı təqdim edir.

Peşəkar rəssamlıq təhsilini Əzim Əzimzadə adına Rəssamlıq Məktəbi və Tiflis Dövlət Rəssamlıq Akademiyasında alan Hacızadə Elşən Əbülfəz oğlu bu sənətin incəliklərinə dərindən bələd olduqca heç kimə bənzəmək istəmirdi. Sənətə gəldiyi ilk gündən rəssamlıq istedadı, güclü rəng duyumu ilə həmkarlarından fərqlənməyi bacarmışdır.Rəssamın yaradıcılığını fərqləndirən əsas xüsusiyyətlərdən biri milli adət-ənənələrə və doğma vətəninə bağlılığıdır.

Elşən Hacızadə yaradıcılığında xüsusi yeri portret janrı tutur. O, bu janrda işlədiyi rəngkarlıq əsərlərində insanların, psixoloji durumunu, mənəvi dəyərlərini məharətlə əks etdirməyi bacarmışdır. Elşən Hacızadənin bu janra hələ gənc yaşlarından müraciət etmişdir. Buna tələbəlik illərində yaratdığı "Tibb elmləri doktoru, məşhur kardioloq Fikrət Zərgərli" nin portretini (1981) qeyd edə bilərik. Bu əsər Bakıda, Moskvada, Bratislavada keçirilən sərgilərdə uğurla nümayiş olunduqdan sonra Mikayıl Abdullayev, Asəf Cəfərov kimi məşhur rəssamlar gənc Elşənə xüsusi diqqət göstərməyə başladılar. Portretdə rəssam istedadlı kardiocərrahı ağ xələtdə, kresloda oturarkən əlində qızılgüllə təsvir etmişdir. Obrazın fikirli baxışları tamaşaçıya doğru yönəlmişdir. Rəssam öz obrazının real,

canl təsvirini dəqiqliklə ifadə etməyi bacarmışdır. Burada obraz fəaliyyət göstərdiyi mühitlə daxilən əlaqələndirilmişdir. Yan masa üzərində olan kitab və tibbi ləvazimatlar surətin daxili məzmunu açmaqda böyük rol oynayır. Arxa fonda isə rəssam doğma Bakı şəhərinin təsvirini vermişdir.

80-ci illərdə öz yolunu uğurla davam etdirən, daima fərqli olmağa çalışan rəssamlardan biri də Kamal Əhməd olmuşdur. O, əsərləri haqqında danışmağı sevmir, daxili aləmini hamıdan gizlətməyə çalışırdı. O, öz hisslərini yalnız kətan üzərindəki obrazları vasitəsi ilə, öz-özü ilə ünsiyyətdə ifadə edirdi. Rəssamın yaratdığı bu uydurma dünya onun üçün doğma dünya olmuşdur. Buna görə də saysız-hesabsız avtoportretlərini işləmiş, özü üçün əvəzsiz həmsöhbət yaratmışdır. Rəssamın fikrincə, incəsənəti yalnız duymaq olar, onu şərh etmək lazım deyil. Doğrudur, o rəssamın şəxsiyyətini, daxili aləmini öyrənmək üçün açar ola bilər, o halda ki, rəssamın qəlbinin çağırışına səmimi, düzgün cavab tapasan.

Rəssamın maraqlı işlərindən biri 1980-ci ildə işlədiyi avtoportretdir. Rəssam özünü daxili dünyasında əlində palitrası ilə təsvir etmişdir. Əsərdə həmçinin molbertin üzərindəki kətan diqqət mərkəzindədir. Rəssam burada Abşeron tikililərinə xass olan hamamların qoşa günbəzini təsvir edir. Lakin bu forma Kamal Əhmədin şərhində qadın sinəsini xatırladan antropomorf cizgilər alır, bununla da reallıqla əlaqəsini itirərək rəmzə çevirir. Buna görə də dahi rəssamın illər ərzində müxtəlif assosiasiyalar yaradan metafora, simvol və işarələrdən ibarət xüsusi dili formalaşmışdı. Digər əsərlərindən biri də rəssamın 1985-ci ildə işlədiyi avtoportretidir. Rəssam özünü tünd fonda təsvir etmiş, sanki o dərin düşüncələrə dalaraq gələcək taleyi haqqında fikirləşir. O, yenə də tənhadır, palitrasından rənglər süzülür, boyakarlıq ona günəşi də, ayı da əvəz edir. Əsər tünd rənglərin çoxluğu ilə fərqlənir.

XX əsrin 80-ci illərində Azərbaycan təsviri sənətində yaratdıqları sənət nümunələr ilə diqqəti cəlb edən gənc sənətçilərdən biri, Abşeron rəngkarlıq məktəbinin məşhur nümayəndəsi olan Fikrət Həşimov öz əsərlərində milli adət-ənənəni, cəmiyyətdəki fərqlilikləri böyük ustalıqla öz çalarlarında vermiş sənətkarlardandır.

Məşhur rəssamın yaradıcılığında insan obrazı mühüm yer tutur. İnsanın siması, onun xarici əlamətləri rəssam üçün tamamilə əhəmiyyətsiz təqdim edilirdi. Rəssam əsas diqqətini obrazın ruhunda, iç dünyasında toplayır. Beləliklə, portret bu terminin adət edilmiş mənasında "portret" olmağı dayandırır. Bu rəssamın portretlərinin əksəriyyəti öz təsəvvürünə, xəyali dünyasına görə yaradılır. Buna görə də onlarda sanki hansısa bir müəmmalılıq, anlaşılmazlıq, qeyri-müəyyənlik var. Rəssamın "Praqalı qız" (1984), "Qadın portreti" (1985), "Təbrizli qız" (1989) , "Xatirələr" (1989) və s. kimi işləri aralarındakı fərqə baxmayaraq, bir bədii konsepsiyanın variantları kimi təqdim edilirlər, hansı ki rəssamın təsəvvürlərində olan gözəllik, analıq obrazını özlərində təcəssüm etdirirlər. Bu portretlərin hər birində kövrək, xəyali fiqurlar, bəzən fikirli və melanxolik, bəzən də sirli və sakitdirlər.

XX əsrin 80-ci illəri Azərbaycan təsviri sənəti üçün olduqca əhəmiyyətli bir dövrdür. Sözügedən dövrün rəssamlarının hər birinin ayrı-ayrılıqda Azərbaycan təsviri sənətinin inkişafında, tərəqqisində özünəməxsus mövqe və xidmətləri olmuşdur. Neçə-neçə gənc rəssam onların yaradıcılığından bəhrələnmiş, onlara istinad etmiş və rəssamlığın sirlərinə yiyələnmişlər. Bu dövrün rəssamları müxtəlif janr, üslub və formalara yeniliklər aşılamış daima axtarışda olmuşlar. Məhz onun nəticəsidir ki, Azərbaycan təsviri sənətinin bu dövrü rəssamlıqda dönüş nöqtəsi kimi xarakterizə olunur.

Beləliklə, məqalədə adları sadalanan Mir Nadir Zeynalov, Elşən Hacızadə, Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə, Fikrət Həşimov, Kamal Əhməd kimi məşhur rəssamlar portret janrını yüksək səviyyədə təmsil etməklə müasir Azərbaycan təsviri sənətinin zənginləşməsinə xidmət etmişdir.

**Ədəbiyyat:**

1. Nəcəfov M.N. Oqtay Sadıqzadə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1968, 70 s.
2. Qacar G. Oqtay Sadıqzadə. Bakı: 2002, 175 s.
3. Əliyev Ziyadxan, Xəlilov Aslan. Azərbaycan incəsənəti. II-III hissələr. Bakı: 2011, 142 s.
4. Fərzəliyev Ç. Azərbaycan rəngkarlığı antologiyası. Bakı: 2007, 392 s.

**Айсель Бархударлы**

**Портретный жанр в изобразительном искусстве Азербайджана в 80-х годах XX века**

**Резюме**

В этой статье представлена информация о жизни и творчестве художников, работающих в портретном жанре 80-х годов XX века. Автор статьи проводит анализ их работ. Кроме того, в статье дается информация о наиболее известных художниках указанного периода.

**Ключевые слова:** Азербайджанская живопись, портретный жанр, реализм, абстракт, художественный образ, художник.

**Aysel Barkhudarli**

**Portrait genre of Azerbaijan's fine art in the 80s of the 20th century**

**Summary**

In this article it is told about life and creative work of the artists who worked in the portrait genre in in this article we can find list of the famous artists.

**Keywords:** Azerbaijani painting, portrait genre, realism, abstract, artistic image, artist

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20.04. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 18.05.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**